# Həmişə sevilən yazıçı

Görkəmli Azərbaycan yazıçısı Abdulla Şaiq uşaqların daha çox sevdiyi və daima oxuduğu ədiblərimizdən biridir. Fərəhli haldır ki, M.T.Sidqi adına Naxçıvan Dövlət Kukla Teatrı həmişə bu yazıçının əsərlərinə müraciət edir. Bu il də teatr müəllifin "Yazıya pozu yoxdur" əsərini səhnələşdirib.

Məlumat üçün deyək ki, naxçıvanlı uşaqların çox sevdiyi bu mədəniyyət ocağı ötən illərdə bir sıra uğurlu tamaşaları ilə balacaları çox sevindirmişdir. Hətta dahi dramaturq Hüseyn Cavidin "Ana" əsəri də teatrın səhnələşdirdiyi ən uğurlu tamaşalardan biri olub.

Adı çəkilən yeni tamaşa isə Mədəniyyət və Turizm Nazirliyinin sifarişi əsasında hazırlanır. Yeni səhnə əsərinin quruluşçu rejissoru əməkdar artist Yasəmən Ramazanova, quruluşçu rəssamı Rəfael Qədimov, bəstəkarı əməkdar incəsənət xadimi Şəmsəddin Qasımovdur.  Rolları Gülnarə Babayeva, Rza Zamanov, Ulduz Süleymanova, İbad Nəbiyev və başqaları səsləndirəcəklər. Cari ilin yeni tamaşası sayılacaq "Yazıya pozu yoxdur" əsərinin kiçik yaşlı tamaşaçılar tərəfindən maraqla qarşılanacağına əminlik var.